# Təhsilə qayğı uğurlu gələcəyimizin təminatıdır



***Azərbaycanda milli tərəqqinin əsas yolu elm və təhsilin inkişafından, habelə kompüter və informasiya texnologiyalarının bütün idarəetmə səviyyələrində geniş tətbiqindən keçir. Bu reallıq nəzərə alınaraq, dövlətin uğurlu elm və təhsil siyasəti həmin sahədə özünü göstərən bir sıra problemlərin həllində mühüm əhəmiyyət kəsb edir. Bir faktı da qeyd edək ki, ölkədə təhsilə xüsusi diqqət yetirilməsi respublikamızın sürətli iqtisadi inkişaf yolunda olması, geniş maliyyə imkanları qazanması ilə şərtlənir. Ona görə də təhsilin bütün istiqamətlər üzrə proporsional inkişafı ciddi investisiya tələb edən məsələ olduğundan dövlətin son illərdəki maliyyə imkanları bu sahədə qlobal layihələrə başlamağa münbit şərait yaratmışdır.***

Təəccüblü deyil ki, Azərbaycanda təhsil müasir dövrün tələblərinə uyğun formada inkişaf edir. Bu ənənə isə çoxdan qoyulub. İstər Azərbaycana birinci, istərsə də ikinci rəhbərliyi dövründə ümummilli lider Heydər Əliyev daim təhsilə, təlim-tərbiyəyə strateji sahə kimi baxmış, Vətənin, xalqın tərəqqisində onların roluna yüksək qiymət vermişdir. “Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir”, – deyən ulu öndər Azərbaycan təhsilinin inkişafı naminə böyük işlər görmüşdür. Müdrik dövlət xadimi təhsilə yalnız savad, bilik qazanmaq, elm öyrənmək imkanı kimi baxmamış, bütövlükdə, hər bir insanın həyatını düzgün qurmasında, fəal vətəndaş mövqeyinin formalaşmasında, cəmiyyətdə gedən tərəqqi prosesində yaxından iştirak etməsində onun mühüm rola malik olduğunu önə çəkərək demişdir: “Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır”.

Möhtərəm Prezidentimiz İlham Əliyev də ulu öndərin yolunu davam etdirərək təhsilə xüsusi qayğı göstərir. “Təhsil hər bir dövlətin gələcəyidir. Biz fəxr edirik ki, Azərbaycanda savadlılıq təxminən 100 faizdir. Bu, çox böyük göstəricidir. Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar. Ona görə, təhsilin keyfiyyəti indi ön plana çıxır. Bu istiqamətdə də islahatlar aparılır. Eyni zamanda, müəllimlərin fəaliyyətini stimullaşdırmaq üçün islahatlar aparılır. Müəllimlərin əməkhaqları qaldırılır. Əlbəttə ki, hər bir məktəbin əsas qiyməti onun fəaliyyətinin göstəriciləri ilə bağlıdır. Hər bir məktəb çalışmalıdır ki, təhsilin səviyyəsi yüksək olsun”.



Möhtərəm Prezidentimiz və Birinci vitse-prezident Mehriban xanım Əliyeva yeni dərs ilinin başlaması ilə əlaqədar yeni tikilmiş məktəblərdə və əlavə korpuslarda yaradılan şəraitlə tanış olmuşlar. Bakıətrafı qəsəbələrdə yeni dərs ilində bir neçə məktəb istifadəyə verilmişdir. Cənab Prezident Bakı şəhəri Suraxanı rayonunda yeni inşa edilmiş məktəb kompleksi ilə tanış olmuşdur. 2304 şagirdin təhsil ala biləcəyi bu məktəb kompleksi bütün müasir avadanlıqlarla təchiz olunmuşdur. Prezident Bakının Nəsimi rayonunda yeni korpusu tikilən 35 saylı tam orta məktədə də olmuş, buradakı vəziyyətlə tanış olmuşdur. Dövlət başçımız Binəqədi rayonunda 335 saylı, Saray qəsəbəsində 2 saylı yeni məktəblərə də getmişdir. Bu məktəblərin hər birində tədrisin yüksək səviyyədə təşkili üçün imkanlar yaradılmışdır.

Dövlət başçımız qeyd edib ki, Azərbaycan uğurla inkişaf edən ölkədir. Son illər ərzində biz bütün istiqamətlər üzrə böyük nailiyyətlərə imza atmışıq. Elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Buna nail olmaq üçün isə əlbəttə ki, insanlar hazırlıqlı, gənclər bilikli olmalıdırlar. Əgər inkişaf etmiş ölkələrin tarixinə və bu gününə baxsaq, görərik ki, o ölkələrdə təhsil, texnologiya, elm inkişaf edir. Biz də bu yolla gedirik. Azərbaycanda gənc nəslin bilikli, savadlı olması ölkəmizi gücləndirir. Çünki iqtisadiyyata, sənayeyə, bütün sahələrə çox gözəl mütəxəssislər lazımdır. Ölkəmizin çox uğurlu inkişaf dinamikası var. Kadr hazırlığı, mütəxəssislər, peşəkarlar, əlbəttə ki, bu dinamikaya əlavə güc verəcək. Ona görə, təhsilin keyfiyyəti ilə bağlı çox önəmli addımlar atılır, islahatlar aparılır.

Hazırda işğaldan azad edilmiş ərazilərdə yeni məktəblərin tikintisi diqqət mərkəzindədir. Prezident İlham Əliyev bütün bu islahatların davamı olaraq zərər görən bölgələrimizdə təhsilə diqqətlə yanaşaraq “2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində zərər vurulmuş təhsil müəssisələrində təmir-tikinti işlərinin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” sərəncam imzalayıb.

Sərəncama əsasən, Gəncə şəhəri, Ağdam, Goranboy və Tərtər rayonlarında ziyan dəymiş təhsil müəssisələrində təmir-tikinti işlərinin həyata keçirilməsinin təmin edilməsi üçün Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə vəsait ayrılıb. Artıq Zəngilan rayonunun Ağalı kəndində (“ağıllı kənd”) müasir tipli yeni məktəb binaları inşa edilmişdir. Bütün bu addımlar o deməkdir ki, Azərbaycanın Qarabağdakı ərazilərdə də uzunmüddətli planlar gerçəkləşdirəcəkdir.

***Səmayə EYNULLAYEVA,***
***“Ankara məktəbi” məktəb-liseyinin direktoru***